UOT 341
DOI: https://doi.org/10.30546/19063.2026.03.005.2074

# DEPORTASİYA EDİLƏNLƏRİN TƏHLÜKƏSİZ QAYIDIŞ ÜÇÜN İNSTİTUSİONAL TƏMİNATLARININ HÜQUQİ ASPEKTLƏRİ

**NOVRUZ HƏBİB OĞLU MEHDİYEV**
*BDU-nun "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru*
*Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148*
*E-mail: novruz_mehdiyev@bk.ru*

**XÜLASƏ**

Məqalədə qeyd olunur ki, İnsan hüquqları sahəsində mühüm münasibətlərin tənzimlənməsi beynəlxalq hüququn ən mühüm problemlərindən biridir. Belə ki, Qərbi Azərbaycana qayıdış bu gün Azərbaycan xalqının qarşısında duran mühüm milli vəzifələrdən biridir. Bu, eyni zamanda beynəlxalq hüquqa uyğundur. Çünki beynəlxalq hüquqda insanın təməl haqlarından biri onun doğulduğu torpaqlarda yaşamaq hüququdur. Qeyd olunur ki, zorla deportasiya olunmuş Qərbi Azərbaycan əhalisinin öz doğma yaşayış yerlərinə təhlükəsiz, könüllü və ləyaqətli şəkildə qayıdışını təmin etməyə yönəlmiş effektiv beynəlxalq mexanizmlər formalaşmalıdır. Bu mexanizmlərin olmaması insan hüquqlarının ən ciddi pozuntularından biri olmaqla yanaşı, Qərbi azərbaycanlıların Ermənistandan məcburi köçürülməsi problemini hələ də həll olunmamış beynəlxalq ədalətsizlik kimi saxlayır.

**Açar sözlər:** *fundamental insan hüquqları, Qərbi Azərbaycana qayıdış, mütləq hüquqlar, deportasiyanın ictimai təhlükəliliyi, insan hüquqlarının təminatı və s.*

İnsan hüquqları içərisində habelə mütləq hüquqlar və dövlətlərin müəyyən hallarda geri çəkilə bildiyi hüquqlar fərqləndirilir. Mütləq hüquqlar o insan hüquqlarıdır ki, dövlət heç bir halda, o cümlədən fövqəladə vəziyyət şəraitində onlardan geri çəkilə bilməz. Avropa insan hüquqları Konvensiyasına görə, bu, aşağıdakı hüquqlardır: yaşamaq hüququ (maddə 2); işgəncələrə məruz qalmamaq hüququ (maddə 3); köləlikdə və ya asılı vəziyyətdə saxlanılmamaq hüququ (maddə 4) və qanunsuz cəzaya yol verilməsi (maddə 7).

İnsan hüquqları və azadlıqlarının müdafiəsi haqqında mühüm beynəlxalq-hüquqi aktlarda öz əksini tapmış universal normaya əsasən, müvafiq konvensiyanın və ya paktın iştirakçısı olan hər bir dövlət öz fəaliyyətində bu hüquq və azadlıqlara hörmət prinsipini rəhbər tutmağa, hər hansı bir ayrı-seçkiliyə yol vermədən bunlara riayət etməyə və həmin dəyərləri öz milli qanunvericilik sistemlərində əks etdirməyə borcludur. İnsan hüquqları və azadlıqları prinsipi ümumi xarakter daşıyan vəzifə kimi üzv-dövlətin yurisdiksiyasında olan bütün şəxslər barəsində bu hüquq və azadlıqlara şərtsiz riayət edilməsini nəzərdə tutur. Məhz bu universallıq və qeyri-diskriminasiya prinsipi nəinki mövcud sahədə araşdırılan problemlərin xüsusiyyətlərini müəyyən edir, həm də dövlətin yurisdiksiyasında olan şəxslərin hüquqi rejiminin müəyyənləşdirilməsi zamanı insan hüquqları və azadlıqları üzrə konkret normaların qanuniliyinin zəruri meyarı rolunu oynayır [9, s.123].

Azərbaycan dövlətinin yeni reallıqlar yaratmasından sonra məcburi köçkünlərimiz öz dədə-baba yurdlarına qayıtmağa başlayıb. Bundan sonra Qərbi azərbaycanlıların da öz torpaqlarına qayıtması üçün yeni imkanlar və perspektivlər yarandı. Parlamentdə Qərbi Azərbaycana qayıdışla bağlı xüsusi komissiyanın yaradılması bu prosesin həyata keçirilməsində əhəmiyyətli hadisədir. Qərbi Azərbaycana dönüşlə bağlı xalqımızın mübarizəsi institusional səviyyəyə qalxdı.

“Qərbi Azərbaycana qayıdış bu gün Azərbaycan xalqının qarşısında duran mühüm milli vəzifələrdən biridir. Qərbi Azərbaycana qayıdış sülh konsepsiyasıdır. Yəni Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına sülh yolu ilə qayıtmasını nəzərdə tutur. Bu, eyni zamanda beynəlxalq hüquqa uyğundur. Çünki beynəlxalq hüquqda insanın təməl haqlarından biri onun doğulduğu torpaqlarda yaşamaq hüququdur.

Qərbi azərbaycanlılar özlərinin siyasi, əmlak, dil, mədəni hüquqlarını bərpa etməli, əcdadlarımızın bizə miras qoyduğu milli-mənəvi dəyərlər üzərində öz tarixi vətənlərində yenidən yaşamalıdırlar, öz hüquqlarını bərpa etməlidirlər

Ermənistan SSR-dən deportasiya olunan azərbaycanlılar haqqında əsl tarixi həqiqətlər 70 illik qadağadan sonra, nəhayət ki, Şimali Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra yazılmağa başlanmışdır.

Qərbi azərbaycanlıların öz tarixi torpaqlarından deportasiyası XX əsrin əvvəllərindən başlamış və dörd mərhələdə həyata keçirilmişdir. Etnik təmiz-

ləmənin birinci mərhələsi 1905-1906-cı illərə, ikinci mərhələsi 1918-1920-ci illərə, üçüncü mərhələsi 1948-1953-cü illərə təsadüf etmişdir. Dördüncü, ən irimiqyaslı mərhələ isə 1987-1991-ci illər arasında, Sovet İttifaqının dağılması astanasında həyata keçirilmişdir.

Həmin dövrdə Ermənistan tərəfindən icra edilmiş bu köçürmə siyasəti XX əsrdə azərbaycanlılara qarşı tətbiq edilmiş sistemli və beynəlxalq hüquqa zidd siyasətin davamı olmuşdur. Qeyd edək ki, bu kütləvi hüquq pozuntularının başlamasına Ermənistan daxilində irredentist meyllərin artması və Ermənistanda monoetnik dövlət qurmaq niyyəti təkan vermişdir.

Deportasiyanın ictimai təhlükəliliyi əhalinin uzun müddət olduğu qanuni yaşayış yerlərindən zorla çıxarılması ilə müşayiət olunan və insanların kütləvi şəkildə ev-eşiyindən, doğma torpağından, ölkəsindən qovulması ilə nəticələnən hərəkətlərlə xarakterizə olunur. Deportasiya məsələsində əsasən iki ifadəyə – "əhalinin qanuni yerləşdiyi yerlərdən başqa yerlərə qovma" və "digər məcburi hərəkətlərlə didərgin salma" ifadələrinə diqqət yetirmək lazımdır.

1987-1991-ci illərdə Qərbi azərbaycanlıların Ermənistan ərazisindən kütləvi və məcburi şəkildə köçürülməsi sistemli xarakter daşımış və bilavasitə etnik mənsubiyyət əsasında həyata keçirilmişdir. Bu məcburi köçürmə yüz minlərlə azərbaycanlının öz daimi yaşayış yerlərindən məhrum edilməsinə səbəb olmuş, onların doğma evlərinə qayıtmaq imkanları qəsdən qeyri-mümkün hala gətirilmişdir. Qərbi azərbaycanlıların məcburi köçürülməsi tək bir akt deyil, bir sıra fundamental insan hüquqlarının, xüsusilə yaşayış yerini seçmək azadlığı, mülkiyyət hüququ, ailə və şəxsi həyata hörmət hüququ, ayrı-seçkiliyə məruz qalmamaq prinsipi və beynəlxalq hüququn əsaslarını təşkil edən doğma torpaqlarına qayıtmaq hüququnun kobud şəkildə pozulması ilə müşayiət olunmuşdur. Bu pozuntular İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, Avropa İnsan Hüquqları Konvensiyası və BMT-nin Məcburi Köçkünlərə dair Rəhbər Prinsiplərində təsbit olunmuş beynəlxalq hüquqi öhdəliklərə tamamilə ziddir.

Hazırda Qərbi azərbaycanlıların öz daimi yaşayış yerlərinə qayıtmasına maneələrin yaradılması, onların mülkiyyət hüquqlarının bərpa edilməməsi və təhlükəsiz qayıdış üçün institusional təminatların verilməməsi bu hüquq pozuntusunun hələ də davam edən xarakter daşıdığını göstərir. Nəticə etibarilə, bu məsələ yalnız keçmişdə qalmış tarixi hadisə deyil, bu gün də davam edən ciddi hüquqi və humanitar problem kimi qiymətləndirilməlidir. Beynəlxalq hüququn imperativ normalarına uyğun olaraq, bu ədalətsizliyin aradan qaldırılması yalnız və yalnız Qərbi azərbaycanlıların öz daimi yaşayış yerlərinə təhlükəsiz, könüllü və ləyaqətli şəkildə qayıdışının təmin edilməsini, onların mülkiyyət və digər əlaqəli hüquqlarının bərpasını tələb edir. Bir daha vurğulanmalıdır ki, bu yanaşma dövlətlərə qarşı ərazi iddiaları ilə deyil, məcburi köçürülmüş əhalinin təməl insan hüquqlarının bərpasına yönəlmiş ali beynəlxalq hüquqi öhdəliklərin icrası ilə bağlıdır və beynəlxalq hüququn ən ümdə prinsiplərinə xidmət edir.

Deportasiya ilk dəfə olaraq insanlıq əleyhinə cinayət kimi Nürnberq Tribunalı Nizamnaməsinin 6-cı maddəsində öz əksini tapmış və YBCT və RBCT nizamnamələrinin 5-ci və 3-cü maddələrində, Sülh və Bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər məcəlləsi layihəsinin 2-ci maddəsində və BCM-nin 7-ci maddəsində daha da genişləndirilmişdir. RBCT Nizamnaməsinin 3-cü maddəsində göstərilir ki, Tribunal mülki əhaliyə qarşı dini, irqi, siyasi, etnik və ya milli əsaslara görə genişmiqyaslı və sistematik hücumun bir hissəsi kimi çıxış edən deportasiyanı insanlıq əleyhinə cinayət hesab edir. Bu keyfiyyətləri özündə ehtiva edən deportasiya insanlıq əleyhinə cinayət kimi aşağıdakı tərkib elementlərinə malikdir: deportasiya istər dinc şəraitdə, istərsə də münaqişəşəraitində mülki əhaliyə qarşı yönəlməlidir;mülki əhaliyə qarşı yönəlmiş deportasiya genişmiqyaslı və sistematik hücumun tərkib hissəsi kimi çıxış etməlidir, deportasiya dövlət planı və ya siyasəti nəticəsində baş verməlidir; deportasiya siyasətini həyata keçirən şəxs əvvəlcədən törədəcəyi əməlin genişmiqyaslı və sistematik hücumun tərkib hissəsi olduğunu dərk etməli, bilməli və hətta bunu arzu etməlidir.

Deportasiya edilənlərin əsas hüquqları aşağıdakılardır: Qayıtmaq hüququ: Doğma yurdlarına, mülkiyyət və yaşayış yerlərinə maneəsiz qayıtmaq hüququ. Mülkiyyət hüququ: Zorla alınmış və ya qoyulub getməyə məcbur olduqları əmlakın (ev, torpaq, şəxsi əşyalar) geri qaytarılması və ya kompensasiya ödənilməsi. Təhlükəsizlik və ləyaqət hüququ: Şəxsiyyətin toxunulmazlığı, işgəncə və qeyri-insani rəftardan müdafiə. Beynəlxalq müdafiə: Beynəlxalq humanitar hüquq normaları (Cenevrə Konvensiyaları) çərçivəsində müdafiə olunmaq.

Bu hüquqlar BMT-nin İnsan Hüquqları Bəyannaməsi və digər beynəlxalq sənədlərlə təmin edilir. Beynəlxalq hüquqa, xüsusilə BMT-nin İnsan Hüquqları Bəyannaməsinə və Avropa İnsan Hüquqları Konvensiyasına əsasən qovulmuş şəxslərin aşağıdakı hüquqları var:

Doğma torpaqlara qayıtmaq hüququ: Hər bir insanın öz ölkəsinə qayıtmaq və daimi yaşadığı yerə geri dönmək hüququ toxunulmazdır. Mülkiyyət hüququ: Deportasiya olunmuş şəxslərin geridə qalan əmlakları üzərində sahiblik hüququ saxlanılır. Onlar itirilmiş mülkiyyətə görə kompensasiya tələb edə bilərlər.Ailə toxunulmazlığı hüququ: Deportasiya ailə üzvlərinin bir-birindən zorla ayrılmasına səbəb olmamalıdır. Məhkəmə müdafiəsi hüququ: Şəxs deportasiya qərarından beynəlxalq məhkəmələrə (məsələn, Avropa İnsan Hüquqları Məhkəməsi) şikayət etmək hüququna malikdir.

Bir sıra beynəlxalq hüquqi sənədlərdə, o cümlədən BMT Baş Assambleyasının 194 saylı qətnaməsində insanların qayıdış hüququ fundamental insan hüququ kimi tanınır və hər bir fərdin öz vətəninə geri dönmək hüququ vardır. Eyni zamanda, beynəlxalq hüququn ümumi prinsiplərinə əsasən qayıdış hüququnun yalnız öz torpaqlarından zorla qovulmuş şəxslərə aid edilmədiyi, eləcə də onların ailə üzvləri və gələcək nəsillərinin də bu hüquqdan istifadə etməsinin, dəymiş maddi və mənəvi zərərə görə kompensasiya tələb etmə hüququnun tanındığı qeyd olunub.

Tarixi torpaqlarından zorla qovulmuş azərbaycanlıların qayıdış hüququnun beynəlxalq səviyyədə tanınması və bu məsələnin qlobal insan hüquqları gündəminə çıxarılması üçün fəal təşəbbüslərlə çıxış edilməsi vacibdir. Həmçinin bu həssas məsələnin BMT aidiyyəti hesabatlarında və tövsiyələrində əks olunmasına çalışmaq, bu kimi fəaliyyətin bölgədə uzunmüddətli sülhə və ədalətin bərqərar olunmasına töhfə verəcəyini xüsusi qeyd etmək lazımdır.

Beynəlxalq hüquqa əsasən, hər bir şəxs öz ölkəsinə və ya daimi yaşayış yerinə qayıtmaq hüququna malikdir. İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsinin 13-cü maddəsinə və Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsinə uyğun olaraq, bu hüquq məcburi köçürülmüş və deportasiya edilmiş şəxslərə münasibətdə xüsusi əhəmiyyət kəsb edir. BMT-nin müvafiq qətnamələrində və Məcburi Köçkünlərə dair Rəhbər Prinsiplərində də zorla köçürülmüş şəxslərin öz daimi yaşayış yerlərinə təhlükəsiz və könüllü şəkildə qayıtmaq hüququ birmənalı şəkildə tanınır. Bu hüquq yalnız fiziki olaraq geri dönüşü deyil, habelə mülkiyyət hüquqlarının restitutsiyasını (bərpasını), təhlükəsizlik təminatlarını və ləyaqətli yaşayış şəraitinin yaradılmasını ehtiva edir.

Azərbaycanlıların Ermənistandan məcburi deportasiyası prosesi daha öncə detallı şəkildə planlaşdırılmış və bu istiqamətdə ciddi hazırlıq görülmüşdür. Yəni baş verən hadisələr ermənilərin iddia etdiyi kimi təsadüfü olmamış və əlbəttə hazırlıq prosesi Ermənistan SSR rəhbərliyinin məlumatı daxilində baş tutmuşdur, əks halda Sovet dövründə bunu təsəvvür etmək belə mümkün deyil. Xüsusilə Sovet dövründə sıravi vətəndaşların avtomat və pulemyot kimi silahlarla silahlanması yalnız Ermənistan siyasi rəhbərliyinin, yerli icra və yaxud hüquq-mühafizə orqanlarının dəstəyi nəticəsində baş verə bilərdi.

Azərbaycanlıların Ermənistandan deportasiya edilməsindən qısa müddət sonra onların qayıdış ümidlərini birdəfəlik yox etmək məqsədilə fərqli bir proses başlamışdır. Bu proses azərbaycanlılara məxsus və min illər ərzində yaradılmış zəngin mədəni irsin, monumental tarix-memarlıq abidələrinin, qəbiristanlıqların, məscidlərin dağıdılması, yaşayış məntəqələrinin tarixi adlarının dəyişdirilməsi və azərbaycanlıların Ermənistanda mövcud izlərinin silinməsi formasında həyata keçirilmişdir.

Qərbi azərbaycanlıların öz daimi yaşayış yerlərinə qayıdış hüququnun tanınması və təmin edilməsi məsələsinin qaldırılması Ermənistan Respublikasına qarşı hər hansı ərazi iddiası kimi şərh edilə bilməz. Söhbət dövlətlərin ərazi bütövlüyünün yenidən müəyyənləşdirilməsindən deyil, qeyri-qanuni şəkildə məcburi köçürülmüş şəxslərin beynəlxalq hüquqla tanınmış fundamental hüquqlarının bərpasından gedir. Qayıdış hüququ fərdi və kollektiv insan hüququ xarakteri daşıyır. Onun həyata keçirilməsi mövcud beynəlxalq sərhədlər çərçivəsində, qəbul edən dövlətin suverenliyi və ərazi bütövlüyünə hörmət prinsipləri əsasında tamamilə mümkündür və beynəlxalq ictimaiyyətin tələbidir.

İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi - insan hüquq və azadlıqları, bu hüquq və azadlıqların həyata keçirilməsi üzrə dövlətlərin öhdəlikləri, həmçinin pozulmuş ayrı-ayrı insan hüquqlarının bilavasitə müdafiəsi və bu sahədə dövlətlərin öz beynəlxalq öhdəliklərini yerinə yetirməsi üzrə beynəlxalq nəzarət mexanizmlərini təsbit və müəyyən edən hüquqi norma və prinsiplərin məcmusudur. Onların əsasında mühüm beynəlxalq normalarla təsbit edilən və irqindən, cinsindən, dilindən, dinindən və s. asılı olmayaraq bütün şəxslərin insan hüquq və əsas azadlıqlarına dövlətlərin riayət etmə öhdəliyi dayanır [ 2;s.7].

İnsan hüquqları sahəsində mühüm münasibətlərin tənzimlənməsi beynəlxalq hüququn ən mühüm problemlərindən biridir. Belə ki, insan hüquqları sahəsində beynəlxalq əməkdaşlıqla bağlı münasibətlərin tənzimlənməsi çox vacibdir. Dövlətlərarası münasibətlərin inkişafı – insanların hüquq, azadlıq və qanuni maraqlarının təmini ilə əlaqədar çox vacib

iqtisadi və hüquqi xarakterli problemlərin yaranmasına səbəb olur. Dövlətlər qarşısında duran mühüm vəzifə insan hüquqlarının kobud və müntəzəm şəkildə pozulmasının qarşısını almaqdır.

BMT Baş Məclisinin 30-cu sessiyasında (10 noyabr 1975-ci il) Sülh və bütün bəşəriyyət naminə elmi-texniki tərəqqidən istifadə edilməsi haqqında Bəyannamə qəbul edildi. Bu Bəyannamə ilə bütün dövlətləri elmi-texniki tərəqqinin nailiyyətlərindən müasir dövrün problemlərinin, o cümlədən insan hüquqları sahəsində problemlərin həll edilməsində istifadə etməyə çağırmışdır.

Əgər beynəlxalq humanitar hüququn prinsiplərinə diqqətlə nəzər yetirsək, əslində onun hər bir müddəasının insan meyarı, insan hüquq və əsas azadlıqlarının müdafiəsi ilə sıx bağlı olduğu bir daha müəyyən edilir. Bu sahədə bütün beynəlxalq sənədlərin müddəaları da bilavasitə müdafiəsiz qalanlarla humanist rəftarı təmin etmək tələbi ilə başlanır [3;s.180].

Hüquqi sistem dövlətin qanunvericiliyi ilə yanaşı müvafiq qaydada ratifikasiya olunmuş müqavilələrin bilavasitə fəaliyyətinə yol verir, lakin dövlətin qanunvericiliyinin əhəmiyyəti həm də ondan ibarətdir ki, bu qanunvericilik insan hüquqlarının reallaşdırılması, qorunması və müdafiə edilməsi üçün başqa hüquqi üsullardan istifadə olunmasını da nəzərdə tutur. Buna görə milli qanunvericilik insan hüquqlarının təmin edilməsinin hüquqi mexanizminin əsas, birinci dərəcəli elementidir [8;p.46].

Belə bir vəziyyətdə beynəlxalq hüquqi norma ilə daxili milli qanunvericiliyin normasının qarşılıqlı münasibəti xüsusi əhəmiyyətə minir. Bu məsələnin səmərəliyi beynəlxalq hüquq normalarına riayət olunmasını təmin edə bilən hüquqi mexanizmdən asılıdır.

İnsan hüquqları və azadlıqlarının həvəsləndirilməsi və onların müdafiəsi BMT-nin fəaliyyətinin əsas istiqamətlərdən birini təşkil edir. İnsan hüquqlarının pozulması hallarının araşdırılması və bu hüquqlara riayət olunması üzrə nəzarət normalarının müəyyən edilməsi istiqamətində müxtəlif müqavilələrə və beynəlxalq paktlara müvafiq yaradılmış mürəkkəb mexanizm əvvəlki kimi böyük əhəmiyyətə malikdir. Məsələn, insan hüquqlarına riayət edilməsi sahəsində müqaviləsi və ya digər fəaliyyət, o cümlədən Avropa Şurasının fəaliyyətinə İnsan Hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında, eləcə də Avropa Sosial Xartiyasında nəzərdə tutulmuş mexanizmlərin əsasında sosial və iqtisadi hüquqların müdafiəsi barədə müddəalar daxildir.

Silahlı münaqişə zamanı aparılan etnik təmizləmə beynəlxalq humanitar hüquq qaydalarına ziddir. Nəticə etibarilə, etnik təmizləmə BMT Təhlükəsizlik Şurasının bir sıra qətnamələrində (771 [1992], 780 [1992], 808 [1993] və 820 [1993]) beynəlxalq humanitar hüququn pozulması kimi təsnif edilmişdir.

Beynəlxalq Qırmızı Xaç Komitəsi 12 Avqust Cenevrə Konvensiyaları: Şərh — Müharibə Zamanı Mülki Şəxslərin Müdafiəsi ilə Bağlı Cenevrə Konvensiyası, cild 4 (Beynəlxalq Qırmızı Xaç Komitəsi, Cenevrə 1958).

Məcburi əhali köçürmələrinə beynəlxalq reaksiyalar son əsrdə əhəmiyyətli dərəcədə dəyişib. Tarixən əhali köçürmələri bir vaxtlar müxtəlif növ münaqişələrin həllinə kömək edən sabitləşdirici amil kimi qəbul edilirdi. Birinci Dünya Müharibəsindən əvvəlki, müharibələrarası və İkinci Dünya Müharibəsindən sonrakı dövrlərdə beynəlxalq ictimaiyyət tez-tez müasir etnik təmizləmə anlayışına daxil olan əhali köçürmələrini qəbul etməyə və ya hətta təsdiqləməyə hazır idi. Lakin bundan sonra azlıqların hüquqları və insan hüquqları standartlarının dəyişməsi baxımından məcburi əhali köçürmələri getdikcə daha çox qeyri-qanuni hesab olunurdu. Lakin ən geci 1990-cı illərin ortalarında Yuqoslaviya və Ruandadakı hadisələr nəzərə alınmaqla, ümumiyyətlə, məcburi əhali köçürmələri və xüsusən də etnik təmizləmə ilə bağlı paradiqma dəyişikliyi baş verdi. Kütləvi qaçqın axını, uzunmüddətli düşmənçilik və milli travmalar yaratmaq potensialı nümayiş etdirilən etnik təmizləmə, BMT Təhlükəsizlik Şurası (941 saylı Qətnamə) tərəfindən də daxil olmaqla, beynəlxalq qeyri-sabitlik və münaqişənin potensial mənbəyi kimi getdikcə daha çox tanınmağa başladı.

Etnik təmizləmə də mahiyyət etibarilə ayrı-seçkilikdir. Bu, müəyyən bir qrupa - etnik və ya mübahisəli şəkildə başqa cür müəyyən edilə bilən qrupa qarşı yönəldilmişdir. Ayrı-seçkiliyin qadağan edilməsi Beynəlxalq İnsan Hüquqları Billində, yəni Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (1948) (1, 2 və 7-ci maddələr), Beynəlxalq Siyasi Hüquqlar və İnsan Hüquqları Konvensiyasında (2 və 26-cı maddələr) və Beynəlxalq Mülki Hüquqlar və İnsan Hüquqları Konvensiyasında (2-ci maddə (2)) möhkəm şəkildə öz əksini tapmışdır.

Beynəlxalq Mülki Apelyasiya Məhkəməsinin (ICTY) məhkəmə təcrübəsi göstərir ki, deportasiya və zorla köçürmə cinayətləri qurbanların daimi köçürülməsi niyyətini tələb etmir, yalnız onların qəsdən köçürülməsini tələb edir. Etnik təmizləmənin mahiyyəti ərazini etnik cəhətdən homogen etmək niyyəti olmaqla, hədəf qrupun daimi köçürülməsi niyyəti olmadan, sadəcə köçürülmə niyyəti etnik təmizləmə üçün kifayət etməzdi [4].

Sülh, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, soyqırımı, digər beynəlxalq cinayətlər, beynəlxalq cinayət əməlləri və fərdlərin məsuliyyəti ilə bağlı çoxsaylı beynəlxalq müqavilələrin heç birində "etnik təmizləmə" anlayışının tərifi yoxdur. Bu anlayış nə Nürnberq və Tokio Hərbi Tribunallarının qanunlarında, nə də 1948-ci il Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiyada, nə də 1977-ci il Əlavə Protokolları ilə birlikdə Müharibə Qurbanlarının Müdafiəsi haqqında 1949-cu il Cenevrə Konvensiyalarında, nə Yuqoslaviya (1993) və Ruanda (1994) üzrə Beynəlxalq Cinayət Tribunallarının qanunlarında, nə də Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsində öz əksini tapmayıb.

"Etnik təmizləmə" de-yure olaraq, ümumiyyətlə, mövcud deyil. Lakin təəssüf ki, bu, yalnız 20-ci əsrin ikinci yarısında deyil, həm də bu gün, 21-ci əsrin əvvəllərində mövcud olan reallıqdır və Birləşmiş Millətlər Təşkilatının və beynəlxalq hüquqşünasların diqqətini cəlb etməyə davam edir. Bu baxımdan, elmi baxımdan aşağıdakı suallar ortaya çıxır: "Etnik təmizləmə", "soyqırımı", "insanlığa qarşı cinayətlər", "müharibə cinayətləri" və "beynəlxalq ictimaiyyəti narahat edən ciddi cinayətlər" anlayışlarının hüquqi məzmunu arasında hər hansı bir əlaqə varmı?; "Etnik təmizləmə" anlayışının məzmunu yuxarıdakı anlayışların hər hansı birinə daxil edilə bilərmi, yoxsa onun öz müstəqil tərifi olmalı və sadalanan təriflərlə eyni sırada durmalıdır?

Y.R. Dekanozova görə, "Etnik təmizləmə" ilk növbədə milli, etnik, irqi və ya dini qrupun daimi yaşayış yerlərindən zorla və ya zor tətbiq etməklə qovulmasıdır. Etnik təmizləmə çox vaxt soyqırım da daxil olmaqla, kobud zorakılıq aktları ilə müşayiət olunur. "Etnik təmizləmə" həmişə "kütləvi hərəkətdir". Bundan əlavə, R. Dekanozov hazırladığı konvensiya layihəsində yazır: "Etnik təmizləmə dedikdə, milli, etnik, irqi və ya dini qrupa qarşı törədilən aşağıdakı hərəkətlər nəzərdə tutulur: a) qrupun daimi yaşayış yerindən deportasiyası və ya zorla köçürülməsi; b) qrupa qarşı zorakılıq təhdidi və ya qrupu daimi yaşayış yerini tərk etməyə məcbur edən qəsdən yaşayış şəraiti yaradılması (Etnik Təmizləmə Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiya layihəsinin 2-ci maddəsi)." [11;c.24-29].

"Etnik təmizləmə yalnız beynəlxalq tribunalların yurisdiksiyasına düşən insanlığa qarşı cinayətlərdən biri deyil, həm də soyqırımın bir formasıdır və Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiyanın müddəaları ilə əhatə olunur. Nəticə etibarilə, iddia etmək olar ki, etnik təmizləmə, ən ağır formada, ümumiyyətlə, insanlığa qarşı cinayət və xüsusən də soyqırım kimi cəzalandırılan hərəkətləri əhatə etdikdə, beynəlxalq hüquqla beynəlxalq yurisdiksiyalı məhkəmələrin yurisdiksiyasına aid edilən hərəkətlərin əhatə dairəsinə düşür, xüsusən də dövlət etnik təmizləmə - soyqırım - törədənlərin nəzarəti altında olan bölgə üzərində nəzarəti müvəqqəti olaraq itirdiyi üçün günahkarları cəzalandıra bilmədikdə və beynəlxalq dövlətlər birliyinə kömək üçün müraciət etdikdə." [6;s.22].

Müharibə cinayətləri və "etnik təmizləmə" üçün ortaq olan qəsdən adam öldürmə; əhalinin qanunsuz deportasiyası və ya köçürülməsi; və girov götürülməsidir. Bütün bu ümumi və ya üst-üstə düşən əməllər Beynəlxalq Cinayət Məhkəməsinin 1998-ci il Roma Statutunun 8-ci maddəsində, 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarının "ciddi pozulması" kimi təyin edilmişdir. Beləliklə, ümumi, ümumiləşdirici bir nəticə çıxara bilərik: "etnik təmizləmə" anlayışının hüquqi məzmunu ilə "soyqırımı", "bəşəriyyətə qarşı cinayətlər" və "müharibə cinayətləri" anlayışlarının hüquqi məzmunu arasında birbaşa əlaqə mövcuddur. Öz növbəsində, soyqırımı cinayəti, bəşəriyyətə qarşı cinayətlər və müharibə cinayətləri Roma Statutunun 5-ci maddəsində (və 1-ci maddəsində) "bütövlükdə beynəlxalq ictimaiyyəti narahat edən ən ciddi cinayətlər" kimi təyin edilmişdir.

"Etnik təmizləmə" bir və ya daha çox etnik mənsubiyyət, din, irq, sinif və ya cinsi üstünlük kimi xüsusiyyətlə fərqlənən əhalinin müəyyən bir ərazidən planlaşdırılmış, qəsdən çıxarılmasıdır" [1;p.3-4].

Nəticə etibarilə, "etnik təmizləmə" cinayəti, bütövlükdə götürüldükdə, beynəlxalq ictimaiyyəti narahat edən ən ciddi cinayətlər sırasına daxil edilə bilər ki, bu da əslində BMT Təhlükəsizlik Şurasının və BMT Baş Assambleyasının rəyi ilə üst-üstə düşür."Etnik təmizləmə" cinayətlərinin (aktlarının) soyqırım anlayışına yaxın özünəməxsus elementləri olduğunu iddia etmək olar. Əgər belədirsə, onda "etnik təmizləmə" aktlarını müəyyən edən hərəkətlər arasında ilk növbədə hər hansı milli, etnik və ya dini qrupun üzvlərinin öldürülməsini - soyqırım və "etnik təmizləmə" ilə ortaq bir hərəkəti adlandırmaq olar olar.

İstərdim ki, Azərbaycanın Qarabağ bölgəsindəki mövcud vəziyyətdə "etnik təmizləmə" anlayışına uyğun gələn ən azı bir element tapaq. Azərbaycan Respublikası Qarabağın etnik erməni əhalisinin öz evlərini (1988-ci ilin fevral ayında münaqişə başlayanda yaşadıqları evləri, azərbaycanlılardan ələ keçirilən evləri yox) tərk etmələrini tələb edir, yoxsa onları mühacirət etməyə məcbur edir? Əlbəttə ki,

yox. Azərbaycan ən yüksək səviyyədə - Prezident İlham Əliyevin səviyyəsində - dəfələrlə açıq şəkildə bildirib: "200 il əvvəl əcdadlarımızın torpaqlarına köçürülən ermənilərin gələcəyinə gəldikdə isə, mən demişəm ki, onlar da bizim vətəndaşlarımızdır. Onlar da bu xuntadan qurtulmalıdırlar. Əgər özlərini xilas edə bilməsələr, biz onlara kömək edəcəyik. Bir daha təkrar edirəm, Dağlıq Qarabağda yaşayan insanlar bizim vətəndaşlarımızdır".

Qafqazda etnik təmizləmənin ən məşhur nümunəsi indi Ermənistan adlanan tarixi Qərbi Azərbaycan torpaqlarından Sovet dönəmində və müstəqilliyin ilk illərində azərbaycanlıların qırğınlara, soyqırımlara, terrora məruz qoyularaq deportasiyasıdır. Ermənistanın sovet dövründən başlayaraq yürütdüyü etnik təmizləmə siyasəti nəticəsində Ermənistan nəinki bu ərazinin aborigen sakinləri olan azərbaycanlılardan tamamilə təmizlənmiş, hətta tarixin müxtəlif dövrlərində bölgəyə gələrək məskunlaşmış yəhudilər, aysorlar, yezidilər də sıxışdırılmışdır. Ermənistan nəinki öz ərazisində, hətta XX əsrin 90-cı illərinin əvvəllərində işğal etdiyi Azərbaycan torpaqlarında da azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirmişdir.

Digər tərəfdən multikultural dəyərləri özünün daxili siyasətinin başlıca prinsipləri elan edən Azərbaycan Ermənistandan fərqli olaraq homogenləşməyə qarşı çıxır və müxtəliflikləri zənginlik kimi qiymətləndirir. Mülki əhaliyə qarşı hər hansı işgəncə faktı yoxdur.

Beləliklə, ən müxtəlif hüquqi sənədlərdə müəyyənləşmiş təriflər əsasında aparılan təhlillər aydın şəkildə sübut edir ki, Ermənilərin guya Azərbaycanın etnik ermənilərə qarşı hansısa təmizləmə siyasəti aparması ilə bağlı iddiaları tamamilə əsassızdır. Tam əksinə Azərbaycan Respublikası Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsinə əsaslanaraq hər kəsin hər bir dövlətin hüdudları daxilində sərbəst hərəkət etmək və yaşamaq, hər kəsin istənilən ölkəni, o cümlədən öz ölkəsini tərk etmək və öz ölkəsinə qayıtmaq hüququnu tanıyır, erməni sakinlərin bu hüquqlarını reallaşdırılması üçün şərait yaradır.

Soyqırıma, etnik təmizləməyə və deportasiyaya məruz qalanlar ermənilər deyil, Azərbaycan xalqı idi. Gəlin 1987-1989-cu illərdə Qərbi Azərbaycanı xatırlayaq. 250.000 yerli Azərbaycan əhalisi hara yoxa çıxdı? Onlar zorla deportasiya edildilər - saqqallı erməni millətçiləri qışda qarlı aşırımlardan keçərək, çoxları sadəcə götürə bilmədikləri isti paltarlar olmadan Azərbaycan Respublikasında sığınacaq tapan azərbaycanlıları qovdular. Bəs Qarabağ bölgəsinin 750.000 nəfərlik azərbaycanlı əhalisi haradadır? Onlar 1991-1994-cü illərdə ermənilər tərəfindən etnik və dini nifrət zəminində etnik təmizləməyə məruz qalıblar və Azərbaycan ərazilərinin işğalı ilə müşayiət olunublar. Bəs Xocalı? Bu, əsl soyqırımın nümunəsi deyilmi?

Qeyd etmək lazımdır ki, BMT Təhlükəsizlik Şurasının 18 dekabr 1992-ci il tarixli 47/121 saylı qətnaməsində deyilir ki, Alt Komissiya tərəfindən Kosovoda (Yuqoslaviya) törədilən cinayət əməlləri ilə bağlı sadalanan "etnik təmizləmə" tərifinə daxil olan əməllər keçmiş Yuqoslaviyanın digər yerlərində və ya dünyanın istənilən yerində törədilə bilər.

Etnik təmizləmə cinayətinin öz elementləri olmalıdır və bu element BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Yuqoslaviya üzrə Beynəlxalq Tribunalın Statutuna daxil edilməlidir. Lakin... bu baş vermədi. Qeyd etmək lazımdır ki, BMT Baş Assambleyası keçmiş Yuqoslaviya ərazisində faciəvi hadisələrin eskalasiyasını qiymətləndirərək artıq 18 dekabr 1992-ci il tarixli 47/121 saylı qətnamədə "etnik təmizləmənin soyqırımın bir forması olduğunu" qəbul etmişdir. Bu qətnamədə Baş Assambleya bütün BMT üzv dövlətlərini "Bosniya və Herseqovinada, keçmiş Yuqoslaviya ərazisinin digər hissələrində və ya dünyanın istənilən digər hissəsində törədilmiş cinayətlərdə birbaşa və ya dolayı yolla iştirak edən bütün şəxsləri məsuliyyətə cəlb etmək üçün bütün səyləri göstərməyə" çağırdı. .[12;c.21-22]

Öz növbəsində, BMT-nin İnsan Hüquqları Komissiyası və onun Ayrı-seçkiliyin Qarşısının Alınması və Azlıqların Müdafiəsi üzrə Alt Komissiyası, materialları əsasında BMT Baş Katibinin ekspertləri onun üçün xüsusi hesabatlar hazırlayıblar, "etnik təmizləmə" tərifinə düşən hərəkətlərin ilkin siyahısını tərtib ediblər. Xüsusilə, "Kosovodakı vəziyyət" qətnaməsində Alt Komissiya "əksəriyyəti keçmiş Yuqoslaviyanın ərazilərində sistematik "etnik təmizləmə" siyasəti və soyqırım aktları ilə əlaqədar törədilən konkret pozuntuları qətiyyətlə pisləyir... və bunlara qırğınlar, işgəncələr, itkin düşmələr, təcavüz və qadınlara və uşaqlara qarşı digər cinsi təcavüzlər, mülki şəxslərin cəbhə xəttində və mina təmizləmə üçün qalxan kimi istifadə edilməsi, özbaşına həbslər, evlərin dağıdılması, dini yerlərin, mədəni və tarixi irsin zorla və qanunsuz köçürülmələri, saxlanılma, özbaşına axtarışlar və digər zorakılıq aktları daxildir" (3-cü bənd).

BMT Təhlükəsizlik Şurasının 19 oktyabr 1993-cü il tarixli 876 (1993) saylı Qətnaməsinin təhlili bizə belə bir nəticəyə gəlməyə imkan verir ki, Təhlükəsizlik Şurası "etnik təmizləməni" cinayət kimi tanı-

yıb; onu beynəlxalq humanitar hüququn digər ciddi pozuntuları arasında sadalayıb, onları eyni səviyyədə saxlayıb; və "etnik təmizləməni" beynəlxalq cinayət kimi pisləyərək rədd etməklə yanaşı, qaçqınların və məcburi köçkünlərin təhlükəsizlik zəmanəti ilə evlərinə qayıtmaq hüququnu təsdiqləyib.

BMT TŞ özünün Qoruma Məsuliyyətinin İcrası haqqında Hesabatında təsdiqləyib ki, “Etnik təmizləmə beynəlxalq hüquqa əsasən öz-özlüyündə cinayət deyil, lakin etnik təmizləmə aktları digər üç cinayətdən birini, yəni soyqırımı, müharibə cinayətlərini və ya insanlığa qarşı cinayətləri təşkil edə bilər” (3-cü bənddə). Eynilə, BMT İnsan Hüquqları üzrə Ali Komissarlığı (İnsan Hüquqları, Birləşmiş Millətlər Təşkilatının [BMT İnsan Hüquqları üzrə Ali Komissarlığı] ) “etnik təmizləmənin soyqırımı, insanlığa qarşı cinayətləri və müharibə cinayətlərinə tabe edilməsi” ndən danışıb (BMT İnsan Hüquqları üzrə Ali Komissarının İllik Hesabatı və Ali Komissarın və Baş Katibin Ofisinin Hesabatları: İnsanlığın Əsas Standartları: Baş Katibin Hesabatı, 24-cü bənd.

Buradan belə nəticə çıxır ki, müəyyən hallarda etnik təmizləmə müharibə cinayəti, insanlığa qarşı cinayət və ya hətta soyqırımı təşkil edə bilər. Bu mülahizə xətti haqlı olaraq bir qədər səmərəsiz kimi tənqid edilə bilər. Əsasən, eyni şeyi müxtəlif digər davranış formaları haqqında da demək olar ki, əgər onlar tələb olunan niyyətlə və konkret actus reus tələblərini yerinə yetirərkən törədilərsə, eyni dərəcədə müharibə cinayətləri, insanlığa qarşı cinayətlər və ya soyqırım kimi qiymətləndirilə bilər. Lakin etnik təmizləmə adətən cinayətkar davranışla əlaqəli olan daimi bir ifadəyə çevrilib. Bəzən etnik təmizləmə ayrıca bir cinayət kimi qiymətləndirilib və bəzən açıq şəkildə soyqırımla eyniləşdirilib. Bu fonda Baş Katib və İnsan Hüquqları üzrə Ali Komissar tərəfindən verilən izahatlar alqışlanmalıdır.

Hətta "soyqırım", "insanlığa qarşı cinayətlər" və "müharibə cinayətləri" təriflərinə daxil olan əməllərin səthi araşdırılması belə müəyyən əməllərin tamamilə "etnik təmizləmə"nin əhatə dairəsinə düşdüyünü göstərir. Soyqırım və "etnik təmizləmə" milli, etnik, irqi və ya dini qrupun üzvlərinin öldürülməsidir. Yeganə fərq niyyətdədir. Soyqırımda niyyət "qrup üzvlərini tamamilə və ya qismən məhv etməkdir". "Etnik təmizləmə"də niyyət kütləvi qətl, əhalinin daimi yaşayış yerlərindən kütləvi şəkildə çıxarılması (qovulması, deportasiyası) yolu ilə müəyyən bir ərazini (rayonu) qrupun bütün əhalisindən təmizləməkdir. Son məqsədlər eynidir, metodlar eynidir (qətl baxımından) və fərqlidir (birləşdirilmiş). Təsnifedici xüsusiyyətlər eynidir: kütləvi miqyas; əvvəlcədən hazırlanmış vahid plana uyğun olaraq əlaqələndirilmiş hərəkətlər; nəticələrin şiddəti; aparıcı siyasi və hərbi xadimlərin birbaşa niyyəti; razılaşdırılmış plana uyğun olaraq "etnik təmizləmə" hərəkətlərinin açıq və ya gizli istiqaməti.

Bəşəriyyətə qarşı cinayətlər və "etnik təmizləmə" üçün ortaq olanlar məhv etmə; kölələşdirmə; əhalinin deportasiyası və ya zorla köçürülməsi; təcavüz; müəyyən edilə bilən hər hansı bir qrupun və ya icmanın milli, etnik, mədəni, dini... və ya digər əsaslarla təqib edilməsi; şəxslərin zorla yoxa çıxması. Gördüyümüz kimi, bəşəriyyətə qarşı cinayətlər və "etnik təmizləmə" arasında bir çox ortaq (oxşar) əməllər mövcuddur. Təsnifedici xüsusiyyətlər faktiki olaraq eynidir.

Mövcud Roma Statutunun 5-ci maddəsində Məhkəmənin yurisdiksiyasına daxil olan cinayətlər ətraflı şəkildə sadalanır: soyqırımı cinayəti; insanlığa qarşı cinayətlər; müharibə cinayətləri; və təcavüz cinayəti. Məlum olduğu kimi, Statutda "təcavüz" anlayışının müqavilə əsaslı tərifi yoxdur. Statutun 5-ci maddəsinin 2-ci bəndində deyilir: "Məhkəmə, 121 və 123-cü maddələrə uyğun olaraq, həmin cinayəti müəyyən edən və Məhkəmənin həmin cinayətə münasibətdə yurisdiksiyasını həyata keçirəcəyi şərtləri müəyyən edən müddəa qəbul edildikdən sonra təcavüz cinayətinə dair yurisdiksiyanı həyata keçirir. Belə müddəa Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin müvafiq müddəalarına uyğun olmalıdır". 121 və 123-cü maddələrə istinadda deyilir ki, Statut qüvvəyə mindikdən yeddi il sonra istənilən iştirakçı dövlət ona düzəlişlər təklif edə bilər (121-ci maddə). Eyni zamanda, BMT Baş katibi Nizamnaməyə edilən hər hansı bir düzəlişləri nəzərdən keçirmək üçün İcmal Konfransı çağıracaq. "Bu cür icmal 5-ci maddədə göstərilən cinayətlərin siyahısını da əhatə edə bilər, lakin bunlarla məhdudlaşmır". Sözsüz ki, beynəlxalq dövlətlər birliyi mütləq BMT Baş Assambleyasının 14 dekabr 1974-cü il tarixində qəbul edilmiş 29 saylı Qətnaməsi ilə qəbul edilmiş və yalnız tövsiyə xarakterli olan Təcavüzün Tərifini nəzərə alaraq "təcavüz cinayəti" anlayışının müqavilə əsaslı tərifini hazırlamalı və qəbul etməli olacaq.

Belə bir konvensiyanın tərəfləri "lazımi qanunvericiliyi qəbul etməli" və etnik təmizləmədə günahkar olanlar üçün effektiv cəzalar təmin etməlidirlər (maddə 5). Bu cinayətkarlar "ərazisində aktın törədildiyi dövlətin səlahiyyətli məhkəməsi və ya həmin məhkəmənin yurisdiksiyasını qəbul edən bu Konvensiyanın iştirakçısı olan dövlətlər üzərində yurisdiksiyaya malik ola biləcək Beynəlxalq Cinayət Məhkəməsi tərəfindən mühakimə olunacaqlar"

(maddə 6). Layihənin 7-ci maddəsi ekstradisiya ehtimalını, 9-cu maddəsi isə mübahisənin Beynəlxalq Ədalət Məhkəməsinə göndərilməsi ehtimalını əhatə edir. Başqa sözlə, layihə, bizim fikrimizcə, konvensiyanın müddəalarının tətbiqi və "etnik təmizləmədə" günahkar olanların cəzalandırılması üçün çox uzun və çətin bir yol təqdim edir.

Roma Statutunun X maddəsində Etnik Təmizləmə Cinayəti məqsədləri üçün etnik təmizləmə cinayəti, milli, etnik, irqi və ya dini qrupun bir hissəsini məhv etmək və ya bu qrupların əhalisini daimi yaşayış yerlərindən qovmaq niyyəti ilə əvvəlcədən razılaşdırılmış plan və ya siyasətə uyğun olaraq bilərəkdən, kütləvi miqyasda törədilən aşağıdakı hərəkətlərdən hər hansı biri deməkdir:

a) Belə bir qrupun üzvlərini öldürmək;

b) Həyatlarını itirmək və ya evlərinin dağıdılması və əmlakının talan edilməsi təhlükəsi altında əhalinin daimi yaşayış yerlərindən deportasiyası və ya zorla köçürülməsi;

c) Qadınlara və uşaqlara kütləvi təcavüz;

d) Girov götürülməsi və məhv edilməsi də daxil olmaqla, belə bir qrupun əhalisinə qarşı terror və faktiki və sistematik təqib;

e) İnsanların zorla yoxa çıxması;

1) İşgəncə;

(g) Sistematik təqib və terror yolu ilə qrup üzvlərinin təhlükəsiz və etibarlı qayıtmaq hüququ olmadan daimi yaşayış yerlərindən kütləvi şəkildə köçməsinə səbəb olmaq üçün qəsdən bir qrupa həyat şəraiti yaratmaq.

Belə bir maddənin Nizamnaməyə daxil edilməsi və onun qəbul edilməsi ilə əlaqədar müvafiq düzəlişlər, dövlətlərin və ya ayrı-ayrı bölgələrin və ərazilərin ən yüksək siyasi və hərbi liderləri də daxil olmaqla, etnik təmizləmə törətməkdə günahkar olan şəxslərin effektiv şəkildə təqib olunmasına imkan verəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Bell - Fialkov A. Ethnic Cieaning. London: MacMillan, 2016.*

*2. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Bakı, 2007*

*3. Əliyev Ə.İ.İnsan hüquqları. Bakı, 2019.*

*4. Milutinović [Judgment] § 167; Stakić [Appeal Judgment] § 307, 317; but see Naletilić [Appeal Judgment, Dissenting Opinion of Judge Schomburg] § 24 )*

*5. Moecki D. Sangeeta Sh. Sandesh S. International Human Rights Law. Oxford University Press, 2018, 630p*

*6. Алексидзе Л. Цит. Заключение Государственной комиссии Грузии. С. 22.*

*7. Гомьен Д. Путеводитель по Европейской Конвенции о защите прав человека и основных свобод (перевод с англ.). Совет Европы. М. из-во юр.лит 2016.*

*8. Гусейнов Л.Г. Конституция Азербайджанской Республики, права человека и международное право// Международное право. 1998. №1, стр.39-54*

*9. Гусейнов Л.Г. Международная ответственность государств за нарушения прав человека. Киев, 2000.*

*10. Деканозов Р. Обоснование необходимости разработки конвенции об этнической чистке и проект этой конвенции. // Журнал международного права. Т. Ш. С. 24 и 29.*

*11. Карташкин В.А. Права человека в международном в внутригосударственном праве. М. 2005*

*12. Решетов Ю.А. В защиту международного права // Московский журнал международ ного права, 1998, № 2. С. 21-22.*

### Правовые аспекты институциональных гарантий безопасного возвращения депортированных лиц

**Новруз Габиб Мехдиев,**
***доцент кафедры «Частное международное право и европейское право» Бакинского Государственного Университета, доктор юридических наук,: novruz_mehdiyev@bk.ru***

## РЕЗЮМЕ

В статье отмечается, что регулирование важных отношений в области прав человека является одной из важнейших проблем международного права. Так, возвращение в Западный Азербайджан — одна из важных национальных задач, стоящих сегодня перед азербайджанским народом. Возвращение в Западный Азербайджан — это концепция мира. То есть, она подразумевает мирное возвращение западных азербайджанцев на их исторические земли. Это также соответствует международному праву. Потому что в международном праве одним из основных прав человека является право жить на земле своего рождения. Принудительное переселение западных азербайджанцев не было единичным актом, а сопровождалось грубым нарушением ряда основных прав человека, в частности свободы выбора ме-

ста жительства, права собственности, права на уважение семейной и частной жизни, принципа недискриминации и права на возвращение на родину, которые составляют основу международного права.

**Ключевые слова:** *основные права человека, возвращение в Западный Азербайджан, абсолютные права, социальная опасность депортации, защита прав человека и др.*

**Legal aspects of institutional guarantees for the safe return of deportees**

**Novruz Habib Mehdiyev,**
***Associate Professor of the Department of "Private International Law and European Law" of Baku State University, Doctor of Philosophy in Law,***
***novruz_mehdiyev@bk.ru***

**SUMMARY**

The article notes that the regulation of important human rights relations is one of the most important issues of international law. Thus, return to Western Azerbaijan is one of the most important national challenges facing the Azerbaijani people today. Return to Western Azerbaijan is a concept of peace. That is, it implies the peaceful return of Western Azerbaijanis to their historical lands. This is also consistent with international law. According to international law, one of the fundamental human rights is the right to live in the land of one's birth. The forced displacement of Western Azerbaijanis was not an isolated act, but was accompanied by gross violations of a number of fundamental human rights, in particular the freedom to choose one's place of residence, the right to property, the right to respect for family and private life, the principle of non-discrimination, and the right to return to one's homeland, which form the foundation of international law.

**Key words:** *fundamental human rights, return to Western Azerbaijan, absolute rights, social danger of deportation, protection of human rights, etc.*

*Rəyçi: Hüquq üzrə fəlsəfə doktoru, dosent Əlizadə Məmmədov*
*Məqalə redaksiyaya daxil olub: 16.02.2026*
*Çapa qəbul olunub: 30.02.2026*

*The date of the admission of the article to the editorial office: 16.02.2026*
*Accepted for publication: 30.02.2026*